RÜBABIYAM ÜLVİYYƏTİN

Könlümün tərlanı qalxmış cövlana,
Çıxmışam qoynunda yenə seyrana.
Eşqin cansızı da gətirir cana,
Sevda beşiyində bəslədin məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Əsir xəfif-xəfif səhər mehləri,
Atır rübəndini qızıl dan yeri,
Sən yar gülşənisən, mən eşq şairi,
Şirin laylalarla gəl oxşa məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Tərlan səhərlərdə doğulmuşam mən,
Nəcib məhəbbətdən yoğrulmuşam mən,
Cilvəli tovuzam, azad quşam mən,
Uçurt, ərşə qaldır şahin tək məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Vurğunu olmuşam səmimiyyətin,
Zərif rübabıyam pak ülviyyətin,
Sən ey qadir ana, bu xoş niyyətin
Qurub yaratmağa çağırın məni,
Ey odlar Vətəni, odlar Vətəni!

* * *

Çəkdim keşiyini fırtınalarda,
Fəlakət önündə, ölümdə, darda
Döndüm pak qoynuna bir ilk baharda,
Eşit, candan artıq sevirəm səni,
Ey odlar Vətəni, odlar Vətəni!

Mənim adi günlərim

KİM Kİ, ÜRƏYİNƏ ARXALANMASA

Zərli albomunu açıb təbiət,
Göstərir ecazkar lövhələrini.
Bu zaman hiss edib bir yeni qüvvət,
Açaraq könlümün can dəftərini.
Dalıram xilqətin dilbər seyrinə,
Lakin yurdumuzun gözəlliyinə
Çatmayır şerimin rəngi, boyası.
Deyirəm: – Çətindir şeir dünyası.
Tərk et mənliyimi, ey ilham pərim.
Gəzmə şeir – sənət gülzarında sən.
Boş yerə axmasın qoy alın tərim,
Başqa bir yol seçim bu dünyada mən.
Ürəyim dil açıb deyir: – Qulaq as!
Sən mənə bağlısan, gəl batma yasa.
Bil ki, o adamdan sənətkar olmaz,
Əgər ürəyinə arxalanmasa.

MƏNİM ADİ GÜNLƏRİM

Siz ey adi günlərim,
Tərk etdikcə məni siz,
Ötənlərə baxıram,
Axıram, hey axıram.
Mavi gözlər bir dəniz.
Deyirəm ləpələrin

Zərif yelpinci olam.
Bələkə tutqun bir qəlbin
Adi sevinci olam.
Bunsuz söylə, kiməm mən?
Hökmü yürügül, vəzni yox,
Adi bir hakiməm mən.

Mənim adi günlərim.
Ey təzadlı günlərim.
Ey adsız,
Ey qanadsız,
Ey qanadlı günlərim.
Dalğadan baş qaldırır,
Qaya ucalmaq üçün.
Süni ucalmaq hissi
Mənə heç yaraşmayır.
Zirvələr baş qaldırır,
Aya ucalmaq üçün.
Yöndəmsiz ucalandan
Xalqıma kar aşmayır.
Mənim adi günlərim,
Sizə qurban kəsim mən.
Siz kişi günlərsiniz,
Üstünüzdə əsim mən.
Əsim mən yarpaq kimi,

Tökülüm mərdanə mən.
Dostların ürəyində
Qoy olum durdanə mən.
Siz bəzən hafizəmdə,
Qarışıq günlərsiniz.
Bəzən şıltaq, rəhmli,
Barışıq günlərsiniz.
Mənim adi günlərim,
Ey şəfəqli günlərim.
Bir-birinə bənzəməz,
Siz ey fərqli günlərim,

Siz sükutun,
Mən sözün
Ayrıcında üşürəm.
Söz xəmirim yoğrulmasa,
El saçından üşürəm.
Gür işıqda sönərəm.
Bir zülmətə dönərəm,
Yox olaram, itərəm...
Düşmənlərim gülməsin,
Məni aciz bilməsin,
Yenə də baş qaldırıb
Torpağımda bitərəm...
Açaram çiçək kimi,
Vuraram ürək kimi.
Sükutla yoxdur aram,
Döyünərəm, susmaram.
Mənim adi günlərim,
Um-küsülü,
Bükülü,
Ey açılı günlərim.
Ey dadlı,
Ey nabatlı,
Ey acılı günlərim.
Siz asta getsəniz də,
Ömrümdən düşürsünüz.

Gəlin can otağıma,
Yel dəyər üşürsünüz.
Elə günlər olub ki,
Hamıdan seçilmişəm,
Elə vaxtlar olub ki,
Sizi boş keçirmişəm,
Utanmışam əqrəblər
On ikiyə çatanda.
Qızarmışam, ilhamım
Gül yastıqda yatanda...

Mənim adi günlərim.
Dili bütöv günlərim.
Həlim,
Qaba,
Mehriban,
Hərdən köntöy günlərim.
Ey toylu,
Yaslı,
Qəmli,
Üzəgülər, sitəmli,
Qeyri-adi günlərim;
Siz mənə əzizsiniz.
Ey təzadlı günlərim,
Mənim adi günlərim...

SƏNİ

Durna qatarıdır, uçan arzular,
Sevdalı qəlbimdə bir nisgilim var.
– Duyardım saçının ətrini ey yar,
Min gülzar içindən seçərdim səni.

Aşiqəm məhəbbət təranəsinə,
Qulaq as könlümün incə səsinə.
– Əgər süzülsəydin eşq badəsinə,
Şirin şərbət kimi içərdim səni.

Gündüzlər günəşdim, gecələr aydım,
Ulduzlu göylərə nəğməmi yaydım.
Vüsal çəmənində alaq olsaydın,
Hicran orağıyla biçərdim səni.

SƏNSİZ

Sol döşüm üstündə yatdım bu gecə,
Ürəyim dil açıb, dedi gizlicə:
– Mən səni yaşadıb, mən səni duydum,
Mən sənin yolunda ömrümü qoydum.

Dedim: – Dinlə könül, mən də bir siməm,
Dostluğa mətinəm, sevgiyə yaram.
Sənsiz bu dünyada, heçəm, heç kiməm,
Ürəkdən yaradan bir sənətkaram.

SƏNSƏN

Göydə qövsi-qüzehim,
Yerdə gül üstdə şehim – sənsən!

Masam üstdə işığım,
Evimdə yaraşığım – sənsən!

Pəncərəmdə küləyim,
Ürəyimdə ürəyim – sənsən!

Dərmanım-davam mənim,
Ən təmiz havam mənim – sənsən!

Dəryada nadir incim,
Həyatda ilk sevincim – sənsən!

PƏRİŞAN OLDUĞUM ANLAR

Buludlarda aypara var,
Ürəyimdə həzin kədər.
Ey vəfasız, ömrüm boyu
Sarsılmazdım mən bu qədər.

Açılmaram, yanıb sollam
Baharda solduğum anlar.
Qırılmış bir kaman ollam;
Pərişan olduğum anlar.

Barışmağa yoxdur güman,
Ey sevgilim sənsiz nəyəm?
Məni niyə sarsıdırsan,
Sarsıntılar içindəyəm.

Söylə, xoş rəftarın hanı,
Bəd rəftarın çaldı məni.
Yaz eşqimin buz boranı,
Tufanlara saldı məni.

OLAYDIM

Ömür keçir, gün keçir,
Saçlarına düşür dən.
O mərmər pillələrlə,
Gəlib qalxıram hərdən.
Sizi görüb ömrümün,
Beş ilini anıram.
Mən yenə də özümü,
Bir tələbə sanıram...
Deyirəm, gün gələydi,
(sözlərimə inanın!)
siz hücum etdiyiniz,

elm adlanan qalanın
açarçısı olaydım!
Arzular qatar-qatar,
Karvan-karvan düzülər.
Ömür hana ipidir –
Qayım dartma, süzülər...
Beş il də çatar başa,
On il də, on beş il də...
Adın gəzir nəğmətək
Neçə obada, eldə.
Qıvırcıq saçlarına
Gümüşü tozlar qonar,
Qızlara bəslədiyin
Duyğuların da donar.
Lakin çıxmaz ürəkdən
Doğma el məhəbbəti.
Bir də ki, şöhrətimiz,
Şirin dil məhəbbəti...
Odur ki, mən deyirəm.
Dünyada öz elimin,
Bir də ana dilimin
İlk carçısı olaydım!

QURBAN OLUM MƏN

Dünyanın ən gözəl günüdür bu gün,
Çəmənlər laləli, çiçəklər gülgün.
Qoy çalıb-çağırsın neçə toy-düyün,
Qara gözlərinə heyran olum mən,
Doğulduğun günə qurban olum mən.

Sən nə lətafətli, sən nə incəsən?
Qol-qanad olmusan hər sevincə sən.
Göy göldən dərilmiş qızıl qönçəsən,
Bir gülsən, qoy sənə güldan olum mən,
Doğulduğun günə qurban olum mən.

Ömürlük sənindir eşqim, sevgilim,
Səninlə gülzara dönür hər ilim.
Sən tazə-tər yaşa, solma, ey gülüm,
Qoy sənin yerinə xəzan olum mən,
Doğulduğun günə qurban olum mən...

PAYIZ GƏLDİ

Payız gəldi, soldu yarpaq
Səni gözlər o bağça-bağ!
Səbrim yoxdur, qaragöz gəl,
Düşdü xəzəl, nigar tez gəl.

Sənsiz bağrım qana dönər,
Baharım xəzanə dönər.

Çəmən üstə qırov düşür,
Ürəyimə alov düşür.
Qovruluram, yanıram mən,
Təkcə səni anıram mən.

Sənsiz bağrım qana dönər,
Baharım xəzanə dönər.

BAHAR ÜMİDLİ NAZIN

Sevgilim, qulaq as bir,
Həyat sevəni sevir.
Mənə də ilham verir
Sənin sükutlu nazın.

Qəlbimə axsan əgər,
Kirpiyim nur çiləyər.
Eşqimi inciləyər
Bahar ümidli nazın...

Həsrətlə yananda mən,
Uçub getdin göyünən.
Güldü ağ tül geyinən
Durna buludlu nazın.

İNTİZAR

Şiş dağların arxasında
Günəş batır, sevgilim.
Göy budaqlar arasında,
Quşlar yatır, sevgilim.

Yuxum qaçmış, kirpiklərim
Qovuşmayır gecələr.
Demə səni vurğun qəlbim,
Soruşmayır gecələr.

Ulduzların sanı qədər,
Səni yada salıram.
Evinizin qabağında
Sübhə kimi qalıram.

Səhər mehi pəncərənə
Qanad çalan anda mən,
Camalına ilk pərvanə,
Oluram cahanda mən.

Qara gözlüm, şər qarışır,
Axşam düşür, gəl barı,
Vüsalla çiçək açsın,
Eşqimizin baharı.

BAXIŞLAR

Baxış var ki, can yandırır,
Odu, atəşi andırır.
Baxış var ki, nə soyuqdur,
Zərrəcə də həyat yoxdur.

Baxış var ki, əfsunu var,
Dərdi, qəmi unutdurar.
Baxış var ki, yadda qalır,
Süzgün baxış canlar alar.

Baxış var ki şəfəq kimi
İsindirir hər iqlimi.
Baxış var ki, qupqurudur,
Dərd artırır, can qurudur.

Baxış var ki, baxış var ki,
Vurğunudur bütün Bakı.
Kəşfedilməz aləmsiniz,
Ay baxışlar!... Ay baxışlar!..

HARAYÇIN OLLAM

Qar yağdı, qapını yaman aldı qış,
Əlinə bir qırıq kaman aldı qış.
Payızdan əlborcu duman aldı qış,
Qayalar bürcündə mən yalçın ollam,
Dumanlı dağlarda harayçın ollam.

Xoşbəxtsən, bir şirin duyğuya düşsən,
Nisgildən ayrılıb, arzuya düşsən.
Gümüş Ay nurunda sən suya düşsən,
Zərif ləpələrdə mən qırçın ollam,
Sonalar gölündə harayçın ollam.

Mən Dədə Qorqudam, ozan şairəm,
Eşqini göylərə yazan şairəm.
İslamam, zirvədə süzən şairəm,
Səni ley çalanda bir laçın ollam,
Çalmalı dağlarda harayçın ollam!..

MƏN DƏNİZƏM...

Mən qartalam,
Qartal zirvələr gəzər.
Mən vüsalam,
Vüsal hicranı bəzər.
Mən bir ayam,
Aya ulduz yaraşar.
Mən sevdaya
Sevdalı qız yaraşar.
Mən sənsizəm,
Sənsiz könlüm açılmaz.
Mən dənizəm,
Dəniz tufansız olmaz.

İTİRƏRSƏN

İşdir, kəm baxsan əgər
Halal el malına sən,
İnsanlıq şərəfini
Bir anda itirərsən.

İtirərsən bir anda
Əzmini, vüqarını,
Sənə "övladım" deyən
Elin etibarını.

Ömründən xoş illəri,
Ayları itirərsən.
Gözlərindən dağları,
Çayları itirərsən.

Dodağından ən şirin
Mahnı səsi kəsilər,
Qulağından suların
Zümzüməsi kəsilər.

Əllərindən soyuyar
Zəhmətin hərarəti.
Ürəyindən silinər
İlk gənclik məhəbbəti.

Doğulduğun diyardan
İzini itirərsən.
Özün bizə gərəksən.
Özünü itirərsən!

QALIBDIR

Qəlbimdə şaxta var, çöldə bahardır,
Ayrılıq saçımda gümüşü qardır.
Həsrət baxışlarım nə intizardır?
Yenə yar məhləsi yarsız qalıbdır.

Dərdlidir can verən eşqin səsi də,
Yaralı şahinin son nəğməsi də.
Vaxt olub, ən uca dağ zirvəsi də,
Gündən busə içib, qarsız qalıbdır.

Mən onu yaşatdım sözdə, şeirdə,
Güman yox üzünü görməyə bir də...
Onun son ləpiri düşdüyü yerdə,
İslam kimi etibarsız qalıbdır.

QƏVVAS

Qəvvas baş vuraraq dənizə endi,
Onun nəfəsilə isindi ümman.
Dəryanın dibində elə bil bu an
Yosunlar sevindi, otlar sevindi.

Qəvvas öz elmini, öz sənətini,
Dəryalar bəzmində kama yetirdi;
Bir gün sərt bir "rəis" onu itirdi –
İtirdi bu gəncin səadətini.

Cəsarət itəndə, hünər itəndə,
Saça dən də düşər, qırov da düşər.
Dərya övladına aləm gülüşər –
Dənizdə göyərib, yerdə bitəndə.

Qəvvas çıxdı sudan, quruda gəzdi,
Ona tor qurdular, tələ qurdular.
Bu ümman oğluna zərbə vurdular,
Dayazlar dərinin qəlbini əzdi.

Onu ağ vannaya saldılar bir gün,
Dedilər ki, sənə bu su da bəsdir.
(Azadə bülbülə qəfəs qəfəsdir)
Qəvvas ümmanlardan edildi sürgün.

Qəvvasım üzdükcə bir böyrü üstə,
Cəsarət sustaldı, hünər dayandı.
Nadanlar qəlbində bir hiss oyandı:
– Yəqin xəstə düşüb zavallı, xəstə.

Lakin hiss etmədi kimsə bu anı,
Hələ görməmişdim qoca dünyada, –
Cəsur bir qəvvasın ağ bir vannada
Belə diri-diri boğulmasını...

GƏLİN DÜŞÜNÜR...

Düşüncə var – şirin olur,
Düşüncə var – acı olur.
Bəzən onlar bir ürəkdə –
Qardaş olur, bacı olur.

Gözəl gəlin, dünya nəydi,
Acı-şirin olmasaydı.
İnsan insan olardımı
Bulud kimi dolmasaydı?

Nə yollara göz dikmisən,
Nə dənizdən gələnin var.
Bəs neçindir qəlbindəki,
Qəmli, həzin pıçıltılar?..

Saf çöhrəndə bərq vurduqca,
Günün şövqü, ayın nuru –
Sən anları əridirsən,
Gözlərində ər qüruru.

Sevgilini görməyirsən,
Buludlardan yuxarıdı.
Onu bizdən alıb gedən,
Nə yel, nə çay axarıdı.

İndi onu düşünsə də
Milyon gəlin, milyon ürək.
Ulduzların arasında,
O da səni düşünür tək.

Gözəl gəlin, çatan kimi
Yarın zöhrə ulduzuna –
Xoş müjdələr gətirəcək
Göy qızından, yer qızına!

NƏ O DİNDİ, NƏ DƏ MƏN...

Yada düşdü ülkər gözlüm,
Könlüm quşu ucar oldu.
Axır gəlib yar mülkündə
Bir sevdaya duçar oldu.

Bir dan üzü yola çıxdım,
Hər qayaya, daşa baxdım.
Buz bulağın aynasına
Birdən yarla qoşa baxdım.

Xar bağlayar quzeydə qar,
Güneylərdə lalə gülər.
Mən yarımı bir yaz günü
Burda sevdim səhər-səhər.

Nə o dindi, nə də mən...
Cənə döndü ahımız.
Yaşıl meşə, göy çəmən,
Oldu seyrangahımız.

O, ADİ BİR QIZ DEYİL...

Paytaxtıma baxıram,
İşıqdan göz qamaşır.
Bakıya təkcə mənim
Sevdiyim qız yaraşır.

Mən hara gedirəmsə
Gözlərimdə o gülür.
Şirin bir mahnı kimi
Ürəyimə süzülür.

Mən onu görməyəndə
Hər şey gözümdən düşür.
O, şəhərə çıxanda
Şəhər də gözəlləşir.

Yanağının allığı
Min çiçəyin rəngidir.
O, adi bir qız deyil,
Gözəlik çələngidir.

YETKİNLİK YAŞINA ÇATANDA QIZLAR

Atanın olsa da min dərdi-səri,
Qüssəni bir ana, bir də qız yeyir.
Çox vaxt kişilərin olmur xəbəri,
Qızlar anasına sirrini deyir.

Nəqarət

Analar qəlbində bir ahu sızlar
Yetkinlik yaşına çatanda qızlar.

Dünən uzaq idi, bu gün yaxındı,
Hardasan, hardasan ey sevdalı bəxt!
Həyatda bu qədər axar-axıntı;
Birini xar edir, birini xoşbəxt.

Nəqarət

Evdə yaşa dolur, bir qız böyüyür,
Onun gözəlliyi eldə qalacaq.
Nigaran-nigaran ürək döyünür;
Qızımız de, kimə qismət olacaq?

Nəqarət

"QIZ BƏNÖVŞƏ"

Gözəl Quba, "Qız bənövşə" axanda,
Niyə belə parıldayır yaxanda?
Ala gözü ala gözdən alandı,
"Qızıl qaya" qabağında qaladı.

Şah dağına hər tutduqca ayna sən.
"Qız bənövşə", qəlbin kimi qayna sən!

Şah dağına quzey qarı çalmadı,
Bağ-bağatın başdan-başa almadı.
"Qız bənövşə", niyə sakit baxırsan?
Sən ki, neçə dağ kəndinə axırsan?

Şah dağına hər tutduqca ayna sən,
"Qız bənövşə", qəlbim kimi qayna sən!

Sən Qubanın mərcan daşlı suyusan,
Nazlı sular sonası tək uyu sən.
"Qudyalçayın" zümzüməsi həzindi,
Nəğmə deyib, könlüm səni gəzindi.

Şah dağına hər tutduqca ayna sən,
"Qız bənövşə", qəlbim kimi qayna sən!

ƏRLƏ-ARVAD ARASINDA

Nədir vüsal, nədir həsrət,
Gülər-ağlar ilk məhəbbət.
Hər bir evdə olar söhbət
Ərlə-arvad arasında.

Yel nəğməmi elə yaydı,
Qəlbim gülə qovuşaydı.
Kaş çiçəklər sayrışaydı
Ərlə-arvad arasında.

Ömür vida təbli çalır,
Kimlər köçür, kimlər qalır..
Gül balalar körpü salır
Ərlə-arvad arasında.

İki ürək bir olarsa,
Övladları batmaz yasa –
Qaynanalar dayanmasa,
Ərlə-arvad arasında.

ƏRKÖYÜNLƏR

Evdə iki dəymədüşər...
Nə danlayın, nə öyün.
Biri nəvə,
Biri nənə –
İkisi də ərköyün.

Biri təzə ayaq açır,
Min qilü-qal qaldırır,
Hər gün evə
Körpə nəvə
Bir oyuncaq aldırır.

O birinə gəlin baxır,
Lap qumaş da geyinir.
Ancaq yenə
Qoca nənə
Dodaqaltı deyinir.

Qulluğunuz göz üstdədir,
Qınamayın heç bizi.
Ay nəvələr,
Ay nənələr,
Vallah, sevirik sizi!

AĞ KƏLAĞAYILI QIZ

Əllərini alaraq
mən öz isti ovcuma,
Mixək gülü bağladım
saçlarının ucuna.
Dalğalı hörükləri
qollarıma dolaşdı,
Nə o dindi, nə də mən.
gecə yarıdan aşdı.
Dənizin şehi qondu
kirpiyinə damla tək.
O şümşad əllərini
tellərimə çəkərək,
Sahil qayalarından
dənizə baxdı, baxdı.
Sularda eşqimizin
qoşa yelkəni axdı.
Bu dilsiz anlarımız
bilsən necə uzandı
Qara bir hörük kimi
bu lal gecə uzandı.
Ulduzlar suya düşdü,
milyon-milyon damcı tək.
Külək onun saçını
oynatdı bir qamçı tək.
Abşeron sahilləri
alatoran görünçək
Sevgilim "Sağ ol" deyə
sıçradı bir maral tək.
Əllərimdən üzüldü
onun əsmər telləri,

Şehli qumlar üstünə
iz saldı ləpirləri...
Dan yeri tək ağardı
bu ağ kəlağaylı qız.

Yalçın qayalar üstə
dayandım yenə yalqız.
O qız min bir fərəhlə
qayıtdı evlərinə.
Çünki könül vermişdi
öz gələcək ərinə.

MƏNƏ QALAN BU OLACAQ

Yan-yanadır yüz alaçıq,
Gah yamaca, gah yala çıx.
Ürək geniş, süfrə açıq,
Kefim duru, damağım çağ,
Mənə qalan bu olacaq.

Bir bələdçim ol, ay yollar,
Daşlı yollar, qolay yollar.
Dolay yollar, dolay yollar,
Xoş xəbərli "Sağsağan dağ",
Mənə qalan bu olacaq.

Otlar üstə izim qaldı,
Gah dirsəyim, dizim qaldı.
Min çiçəkdə gözüm qaldı,
Turşsu üstü, "Çarıq bulaq",
Mənə qalan bu olacaq.

Göy buludlu, hava sərin,
Çırpı yığın, moruq dərin.
Çubuq şişdə kabab verin,
Yağar yağış, sönər ocaq,
Mənə qalan bu olacaq.

Günlər keçir birəm-birəm,
Bir uğurlu yol gedirəm.
Yurdumuzu vəsf edirəm,
Əldə qələm, dizdə varaq,
Mənə qalan bu olacaq.

Bu ellərin bil ki, hər dəm,
Sevinciyəm, kədəriyəm.
Demə gəldi-gedəriyəm,
Mən İslama, ay Qarabağ,
Vallah,qalan bu olacaq.

BİR DƏSTƏ AÇAR

O, təzə evin önündə durdu
Töküləndə qar.
Evlər müdiri ona buyurdu
Bir dəstə açar...

Bəri ver, ey dost, dilli qarmonu,
Çəkim mən zilə...
Mərmər pillələr qaldırdı onu
Təzə mənzilə.

Çağır yarını, gözəl dilbərin
Xalını sərsin.
Köçənlər köçüb, köçməyənlərin
Başına gəlsin.

İşıqlı, qəşəng, belə bir bina,
Belə ev hanı?
Sanki Bakını basıb bağrına
Qoşa eyvanı.

Dənizin mehi gəzir otaqda,
Gülür şüşələr...
Aydın görünür bir az uzaqda
Polad meşələr...

Xəzər suları bu gənc neftçini,
Sanki vəsf edir.
Çoxları kimi yoxdur bir çini,
Adi fəhlədir.

Qədəmi yüngül, əli sayalı,
Özü subaydır.
Bir həkim qıza nişan qoyalı
Cəmi üç aydır.

Bir xəfif nida gəzir dilində:
– Hardasan, ey yar?
O, yalqız durub, tutmuş əlində
Bir dəstə açar...

TƏKƏRLƏR YOLLARA PIÇILDAYIRDI...

Qatar iti gedirdi,
Yolları qət edirdi...
Gecə yarı...
Kupelər sönmüşdü
başdan-başa.
Ancaq bir pəncərədən,
İşıq qonurdu hərdən
torpağa, daşa.

Tərləmişdi aynalar payızın nəfəsindən.
Parovozun səsindən;
İki gəncin yuxusu
Tamam qalxmışdı ərşə.
Söhbətin kələfinə qorxurdum düyün düşə.

Dəqiqələri udub,
Özlərini unudub –
Onlar söhbəti eldən-obadan salmışdılar.
Yaman dil var bu qızda:
– Bura bax, tarlanızda,
Nə qədər "ağ qızıl" var?
– Soruş ki, "ağ qızıl" dərən qızlar necədir?

– İşıq olsa baxardım.
– Gözün görməz, gecədir.
– Sizdə bütün qızların sifəti dolğun olur?
– Yoxsa sizdəkilərin yanağı solğun olur?
– Şərt nə gül yanaqdadır,
Nə də çatma qaşdadır.
Şərt...
– Bilirəm, ay oğlan,
Ağıldadır, başdadır.

– Bu ağılla, bu başla təki elə şöhrət ol,
Deyiklin də yoxdursa, yaxşısına qismət ol.
– Mən hələ...
– Subaysanmı?
– Adını da bilmirəm...
– Hə, deyimmi?
– Bura bax,
Gəl elə ikimiz də sözü burda qurtaraq!..
...Onlar susdu bir qədər.
Mahnı dedi təkərlər...
Onlar düzə baxdılar,
Birdən necə oldusa, lap göz-gözə baxdılar...
Onlar iki mahalın yüz şənindən danışdı,
(Onlar deməsəydi də bizə çoxdan tanışdı).
Onlar bircə
Bu gecə
Əsil sözü demədi.
Məndən soruşmayın siz, soruşmayın o nədi?
Onu sübhün küləyi
Üfüqlərə yayırdı.
Təkərlər də yollara "sevgi" pıçıldayırdı...

Xan Arazın sahilində



GƏLMİŞƏM

Yenə coşdu ürəyimin telləri,
Əziz dostlar, mən tüğyana gəlmişəm.
Neçə vaxtdır görmür məni bu yerlər,
Araz üstə mən seyrana gəlmişəm.

Ah, nə deyim, nə söyləyim sizə mən,
Gözüm dolur, söz deyəndə ürəkdən.
Bu torpaqda kəsdiyim duz-çörəkdən,
Qüvvət alıb, mən cövlana gəlmişəm.

Vurulduqca bu sevimli yurda mən,
Rübabımı kökləmişəm burda mən.
Mənə şeİr çələngini bəxş edən,
Yaraşıqlı bir məkana gəlmişəm.

Ovçu kimi mən dolana-dolana,
Qalxıb Araz qırağından bu yana.
Baba yurdum gözəl Nəqşi-cahana, –
Ana yurdum Naxçıvana gəlmişəm.

NAXÇIVANIM

Çöllərindən keçən mənəm,
Söz qoşmamış keçəmmənəm,
Sularından içən mənəm,
Mənim barlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.
Qızların var, xumar gözlü,

Mah camalli, şirin sözlü.
Göy dərəli, məxmər duzlu,
Başı qarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Gör nə çalır könül simi:
– Şerə verdim mən eşqimi.
Mirzə Cəlil, Bəhruz kimi
Sənətkarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Zirvələrin dənər qarlı,
Şimşəklərin od çaxarlı.
Ey axarlı, ey baxarlı,
Ey gülzarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

Mən neylərəm sənsiz görən?
Doymaz səndə ömür sürən.
Ey İslama könül verən
Düz ilqarlı Naxçıvanım,
Xoş baharlı Naxçıvanım.

"QIZLAR BULAĞI"

Dan sökülür,
Nur tökülür.
Üfüqlərin dodağından.
Gənclər durur,
Su doldurur
Bizim "Qızlar bulağı"ndan ...

Gülür lalə,
Gur şəlalə
Qayalardan axıb gedir,